**İqtisadi nəzəriyyə. Ümumi iqtisadiyyat. Economic theory. General economics.**
**2026 (1). səh.34-43. 2026 (1). pp. 34-43. 2026 (1). стр. 34-43.**
**UOT: 338.43, 331.5; JEl: Q10, J21, R11.**
**https://doi.org/10.59849/2519-8130.2026.1.34**

**Rəsmiyyə Abdullayeva**
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun*
*"İnklüziv sosial inkişaf" şöbəsinin müdiri,*
*iqtisad elmləri doktoru, professor*
*E-mail:resmiyye2002@mail.ru*

**Pərviz Həsənov**
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun*
*"Xidmət sferasının iqtisadiyyatı" şöbəsinin müdiri,*
*iqtisad üzrə fəlsəfə doktoru, dosent*

# QARABAĞ İQTİSADİ RAYONUNDA ƏHALİNİN MƏŞĞULLUĞUNUN TƏMİN OLUNMASINDA KƏND TƏSƏRRÜFATININ ROLU

## XÜLASƏ

Bu tədqiqatın məqsədi Qarabağ iqtisadi rayonunda əhalinin məşğulluğunun təmin olunmasında kənd təsərrüfatının rolunu araşdırmaq, mövcud problemləri və imkanları təhlil etmək, eləcə də bu sahədə inkişaf perspektivlərini müəyyənləşdirməkdən ibarətdir. Məqalədə son illərdə Qarabağ iqtisadi rayonunda bitkiçilik və heyvandarlıq sahələrinin mövcud vəziyyəti qiymətləndirilmiş, müasir texnologiyaların tətbiqinin məhsuldarlığa və məşğulluğa təsiri araşdırılmışdır. Bunlarla yanaşı, işğaldan azad edilmiş ərazilərdə məşğulluğa təsir edən amillər müəyyənləşdirilmiş, Qarabağ iqtisadi rayonunda əhalinin məşğulluq səviyyəsi təhlil olunmuşdur.

**Açar sözlər:** Qarabağ iqtisadi rayonu, kənd təsərrüfatı, məşğulluq, Böyük Qayıdış, dayanıqlı məskunlaşma, innovasiya

**Rasmiyya Abdullayeva**
*doctor of economic sciences, professor,*
*head of the "Inclusive Social Development" department,*
*Institute of Economics of the Ministry of Science and Education of the Republic of Azerbaijan*

**Parviz Hasanov**
*doctor of philosophy in economics, associate professor,*
*head of the "Economics of the Service Sector" department,*
*Institute of Economics of the Ministry of Science and Education of the Republic of Azerbaijan*

**THE ROLE OF AGRICULTURE IN ENSURING EMPLOYMENT OF THE POPULATION IN THE KARABAKH ECONOMIC REGION**

**SUMMARY**

The purpose of this study is to examine the role of agriculture in ensuring employment of the population in the Karabakh economic region, to analyze existing problems and opportunities, and to identify development prospects in this field. The article evaluates the current state of crop production and livestock farming in the Karabakh economic region in recent years, and investigates the impact of the application of modern technologies on productivity and employment. In addition, factors affecting employment in the territories liberated from occupation have been identified, and the level of employment of the population in the Karabakh economic region has been analyzed.

**Keywords:** Karabakh economic region, agriculture, employment, Great Return, sustainable settlement, innovation

**Расмия Абдуллаева**
*доктор экономических наук, профессор,*
*заведующая отделом «Инклюзивное социальное развитие»,*
*Институт экономики Министерства науки и образования Азербайджанской Республики*

**Первиз Гасанов**
*доктор философии по экономике, доцент,*
*заведующий отделом «Экономика сферы услуг»,*
*Институт экономики Министерства науки и образования Азербайджанской Республики*

**РОЛЬ СЕЛЬСКОГО ХОЗЯЙСТВА В ОБЕСПЕЧЕНИИ ЗАНЯТОСТИ НАСЕЛЕНИЯ В КАРАБАХСКОМ ЭКОНОМИЧЕСКОМ РАЙОНЕ**

**РЕЗЮМЕ**

Цель данного исследования заключается в изучении роли сельского хозяйства в обеспечении занятости населения в Карабахском экономическом районе, анализе существующих проблем и возможностей, а также определении перспектив развития в данной сфере. В статье оценено текущее состояние растениеводства и животноводства в Карабахском экономическом районе за последние годы, исследовано влияние применения современных технологий на продуктивность и занятость. Наряду с этим определены факторы, влияющие на занятость в освобождённых от оккупации территориях, а также проанализирован уровень занятости населения в Карабахском экономическом районе.

**Ключевые слова**: Карабахский экономический район, сельское хозяйство, занятость, Великое возвращение, устойчивое расселение, инновации

*Bu iş Azərbaycan Elm Fondunun maliyyə dəstəyi ilə yerinə yetirilmişdir.*
*Qrant № AEF-MQM-QA-3-2025-3(56)-03/03/5-M-03*

**Giriş**

2020-ci ilin payızında Milli ordumuz təqribən otuz il ərzində işğal altında qalmış ərazilərimizi azad etdi. Azad olunmuş ərazilərin böyük hissəsi uzunmüddətli işğal dövründə ciddi dağıntılara məruz qalmış, sosial infrastruktur və yaşayış mühiti baxımından yararsız vəziyyətə düşmüşdür. Bu səbəbdən həmin ərazilərin bərpası və yenidən qurulması dövlət qarşısında strateji prioritet kimi müəyyənləşdirilmişdir. İşğaldan azad edilmiş ərazilərdə şanlı Zəfərdən sonra genişmiqyaslı bərpa və yenidənqurma işlərinə başlanılmış, əhalinin geri qayıdışının və məşğulluğunun təmin olunması istiqamətində mühüm addımlar atılmışdır. Məlum olduğu kimi, işğaldan azad edilmiş ərazilər ənənəvi kənd təsərrüfatı təcrübəsinə malikdir və bu ərazilərdə aparılan bərpa və yenidənqurma işləri aqrar sahənin yenidən dirçəldilməsinə və yeni məşğulluq imkanlarının formalaşmasına səbəb olmuşdur. Qarabağ iqtisadi rayonunun torpaq-iqlim şəraiti, su ehtiyatları və ənənəvi təsərrüfat təcrübəsi bu sahənin inkişafı üçün əlverişli imkanlar yaradır. Əkinçilik və maldarlıq üçün əlverişli şəraitə malik olan bu bölgədə hazırda kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. İşğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və yenidənqurma işləri kənd təsərrüfatının dirçəldilməsinə və nəticə etibarilə məşğulluğun artmasına mühüm töhfə verir. Bitkiçilik və heyvandarlıq sahələrinin inkişafı, aqrar infrastrukturun bərpası, müasir texnologiyaların tətbiqi və dövlət dəstəyi mexanizmləri regionda yeni iş yerlərinin yaradılmasına şərait yaradır.

**Əsas mətn**

**İşğaldan azad edilmiş ərazilərdə məşğulluğa təsir edən amillər:** Hazırda işğaldan azad edilmiş ərazilərin sürətli bərpası, sosial-iqtisadi inkişafının təmin edilməsi və dayanıqlı məskunlaşmanın həyata keçirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Bu baxımdan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi potensialının bərpası, infrastrukturun yenilənməsi və köçürülən əhalinin məşğulluğunun təmin edilməsi xüsusi əhəmiyyət kəsb edir. Sözügedən amillər dayanıqlı məskunlaşmanın təmin olunması və regionlarda sosial sabitliyin möhkəmləndirilməsi nöqteyi-nəzərindən mühüm rol oynayır. Təsadüfi deyil ki, şanlı Zəfərdən sonra qəbul edilmiş mühüm dövlət sənədlərində ("Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" [1], "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" [4]) məşğulluğun təmin olunmasına xüsusi diqqət ayrılmışdır. Qeyd etmək lazımdır ki, işğaldan azad edilmiş ərazilərdə əhalinin məşğulluğuna bir sıra amillər təsir göstərir. Bu amillərə işğaldan azad edilmiş ərazilərdə təhlükəsizlik, infrastrukturun yaradılması, iqtisadiyyatın müqayisəli üstünlük sahələrinin müəyyənləşdirilməsi və inkişaf etdirilməsi, yerli və xarici investorların bu ərazilərə investisiyalarının cəlbi və s. daxildir. Aşağıdakı şəkildə işğaldan azad edilmiş ərazilərdə məşğulluğa təsir göstərən amillər əks olunmuşdur (şəkil 1).

**Təhlükəsizlik və mina təmizləmə işləri:** Dayanıqlı məskunlaşma və məşğulluq ilk növbədə bu ərazilərin minalardan təmizlənməsindən və yaradılacaq təhlükəsizlikdən asılıdır. Təhlükəsizlik həm investorların marağını artırır, həm də yerli əhalinin uzunmüddətli əmək fəaliyyətinə davamlılığını təmin edir. Təhlükəsizlik ümumilikdə regionun dayanıqlı inkişafı üçün mühüm əhəmiyyət kəsb edir.

**Demoqrafik vəziyyət:** Məşğulluğa təsir edən mühüm amillərdən biri demoqrafik vəziyyətdir. İşğaldan azad edilmiş ərazilərə qayıdan məcburi köçkünlərin sayı, yaş və cins tərkibi insan resurslarının səmərəli inteqrasiyasında xüsusi rol oynayır. Demoqrafik vəziyyət bu ərazilərin sosial-iqtisadi cəhətdən inkişafında da mühüm rol oynayacaqdır.

**İnfrastrukturun bərpası və yenidən qurulması:** İşğaldan azad edilmiş ərazilərdə müvafiq infrastrukturun bərpası və yenidən qurulması dayanıqlı məskunlaşmanın əsas şərtlərindən biridir və mühəndislər, texniki mütəxəssislər və ixtisaslı işçilər üçün əmək bazarında yeni imkanlar formalaşdırır. Avtomobil və dəmir yollarının, hava limanlarının, enerji və su təchizatı sistemlərinin bərpası və yenidən qurulması həm tikinti mərhələsində, həm də istismar dövründə çoxsaylı iş yerlərinin yaradılmasına səbəb olmuşdur.

Şəkil 1.

**İşğaldan azad edilmiş ərazilərdə məşğulluğa təsir göstərən amillər**




**Mənbə**: Şəkil müəlliflər tərəfindən hazırlanmışdır.

**Kənd təsərrüfatı potensialı:** İşğaldan azad edilmiş torpaqların böyük hissəsi kənd təsərrüfatı sahəsi üçün yüksək potensiala malikdir. Torpağın münbitliyinin bərpası, irriqasiya sistemlərinin modernləşdirilməsi və aqrotexniki innovasiyaların tətbiqi yeni məşğulluq imkanlarının formalaşmasına şərait yaradır. Xüsusilə aqronomlara, texniki xidmət və idarəetmə üzrə mütəxəssislərə tələbat artır.

**Sənaye potensialı:** İşğaldan azad edilmiş ərazilərdə sənaye sahəsi müqayisəli potensial üstünlük sahələrindən biridir. Bu ərazilərdə yeni sənaye parkları yaradılır. Qeyd etmək lazımdır ki, "yaşıl enerji" prinsiplərinə əsaslanan sənaye müəssisələrinin yaradılması post-konflikt ərazilərin dayanıqlı iqtisadi inkişafına, habelə məşğulluğun təmin olunmasına xidmət edir.

**Turizm potensialı:** İşğaldan azad edilmiş ərazilər üçün turizm də müqayisəli üstünlük sahəsi sayıla bilər. Dağlıq ərazilər, meşələr, çaylar və bulaqlar, mineral sular, dağ iqlimi, dağlıq relyef, yeni yollar, hava limanları bu bölgənin iqtisadi potensialını gücləndirir, həm də məşğulluq imkanlarının yaxşılaşdırılmasına şərait yaradır.

**Kreativ iqtisadiyyat potensialı:** Qarabağ iqtisadi rayonu zəngin tarixi və mədəni irsə malik bölgələrindən biri olduğundan, burada kreativ iqtisadiyyatın inkişafı üçün böyük potensial mövcuddur. Musiqi (xüsusilə muğam sənəti, aşıq yaradıcılığı), xalq sənətkarlığı və tətbiqi incəsənət sahələri (xalçaçılıq, zərgərlik, dulusçuluq, ağacoyma və s.), tarixi abidələr yaradıcı sənayelərin inkişafı üçün mühüm resurslardır. Kreativ iqtisadi potensialın düzgün dəyərləndirilməsi yeni iş yerlərinin açılmasına şərait yaradacaqdır.

**İnvestisiya mühiti və dövlət dəstəyi:** Regionların sosial-iqtisadi cəhətən inkişafında investisiyaların, xüsusilə xarici sərmayələrin rolu xüsusi əhəmiyyət kəsb edir. Həm yerli, həm də xarici investorlar üçün vergi güzəştlərinin tətbiqi və digər təşviqedici tədbirlərin həyata keçirilməsi yeni iş yerlərinin yaradılmasına stimul verir. Kənd təsərrüfatı, tikinti, turizm və sənaye sahələrinə yönələn investisiyaların artımı həm qısamüddətli, həm də uzunmüddətli perspektivdə regionda məşğulluğun təmin olunmasına şərait yaradır.

**Təhsil və peşə hazırlığı:** Əhalinin peşə və ixtisas səviyyəsinin yüksəldilməsi məşğulluq siyasətinin əsas prioritet istiqamətlərindəndir. İşğaldan azad edilmiş ərazilərdə təhsil müəssisələrinin yenidən qurulması, peşə təlim mərkəzlərinin yaradılması və müasir tədris proqramlarının tətbiqi insan kapitalının formalaşmasına və peşə bacarıqlarının inkişafına xidmət edir. Xüsusilə texniki peşələr, infrastruktur xidmətləri, müasir kənd təsərrüfatı və sənaye sahələri üzrə kadr hazırlığı regional əmək bazarının mövcud və gələcək tələblərinə uyğun şəkildə təşkil olunmalıdır.

**Qarabağ iqtisadi raonunda kənd təsərrüfatının mövcud vəziyyətinin qiymətləndirlməsi:** Məlum olduğu kimi, işğaldan əvvəl Qarabağ iqtisadi rayonunda iqtisadiyyatın əsasını kənd təsərrüfatının əsas alt-sahələri sahələri heyvandarlıq və əkinçilik təşkil etmişdir. Hazırda da işğaldan azad edilmiş ərazilər münbit torpaq ehtiyatları ilə seçilir. Uzun müddət istifadəsiz qalsa da, torpaqların kimyəvi çirklənməsi nisbətən azdır və bərpa olunduqdan sonra yüksək məhsuldarlıq vermək qabiliyyətinə malikdir. İşğaldan azad edilmiş ərazilərdə əsas əkinçilik sahələri taxılçılıq, üzümçülük, pambıqçılıq, baramaçılıq, meyvəçilik və tütünçülük olmuşdur. Qarabağın bəzi rayonlarında üzümün və taxılın məhsuldarlığı ölkənin digər regionlarından yüksək olmuşdur. Dünya bazarında və Azərbaycanda ərzaq məhsullarına tələbatın artması və qiymətlərin yüksəlməsi, əlverişsiz iqlim dəyişiklikləri, pandemiyanın mənfi təsirləri, davamlı və dayanıqlı inkişaf məqsədlərinə nail olunması, əhalinin ekoloji təmiz və sağlam qida ilə təminatı və ərzaq təhlükəsizliyinin aktuallaşması fonunda işğaldan azad olunmuş torpaqlarımızda kənd təsərrüfatı məhsullarının istehsalının təşkili mühüm rola malik olacaqdır [6].

Qarabağ iqtisadi rayonunda kənd təsərrüfatı sahəsinin mövcud vəziyyətinə nəzər salaq. Aşağıdakı cədvəldə Qarabağ iqtisadi rayonu üzrə bitkiçiliklə bağlı mövcud vəziyyət əks olunmuşdur (Cədvəl 1).

Cədvəl 1.

**Bitkiçilik**

| | 2015 | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|---|
| **Kənd təsərrüfatı bitkilərinin istehsalı (ton)** | | | | | | |
| Dənli və dənli paxlalı bitkilər | 406180 | 436695,7 | 389840,8 | 409670,9 | 409486,4 | 476448,7 |
| o cümlədən payızlıq və yazlıq buğda | 272031 | 304600,3 | 280918,8 | 268678,2 | 295013,3 | 300277,9 |
| Pambıq | 6479 | 95764,0 | 81312,4 | 95698,9 | 74473,7 | 79044,2 |
| Şəkər çuğunduru | 90565 | 50366,1 | 21183,1 | 14858,0 | 21355,9 | 40689,1 |
| Dən üçün günəbaxan | 2507 | 5305,2 | 6599,4 | 7020,2 | 6824,6 | 6576,8 |
| Kartof | 22332 | 17159,6 | 15524,0 | 14273,6 | 17162,7 | 17777,0 |
| Tərəvəz | 127419 | 253224,3 | 292461,8 | 278801,1 | 284898,7 | 320893,0 |
| Bostan məhsulları | 52521 | 50520,4 | 50205,1 | 62131,2 | 55600,9 | 73929,6 |
| Meyvə və giləmeyvəlilər | 32559 | 51137,1 | 51952,2 | 54970,6 | 58444,4 | 58995,2 |
| Üzüm | 7291 | 8149,4 | 7966,4 | 7988,5 | 8146,4 | 7823,0 |
| **Kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı (sentner/ha)** | | | | | | |
| Dənli və dənli paxlalı bitkilər | 36,5 | 35,6 | 37,2 | 35,2 | 41,5 | 32,1 |
| o cümlədən buğda | 35,4 | 34,8 | 37,9 | 36,1 | 42,1 | 30,6 |
| Pambıq | 20,3 | 35,3 | 29,2 | 32,8 | 31,1 | 28,5 |
| Şəkər çuğunduru | 354 | 481,0 | 313,1 | 233,3 | 496,3 | 384,1 |
| Dən üçün günəbaxan | 23,0 | 25,8 | 26,2 | 26,5 | 27,6 | 22,7 |
| Kartof | 125 | 135,3 | 132,6 | 134,5 | 147,2 | 137,7 |
| Tərəvəz | 142 | 246,6 | 259,6 | 277,7 | 287,5 | 314,8 |
| Bostan bitkiləri | 169 | 257,7 | 248,9 | 260,4 | 258,8 | 254,3 |
| Meyvə və giləmeyvəlilər | 70,0 | 94,7 | 89,9 | 90,8 | 94,9 | 90,7 |
| Üzüm | 72,2 | 87,0 | 72,9 | 70,9 | 78,9 | 71,9 |

**Mənbə**: Cədvəl https://www.stat.gov.az/source/regions/ mənbəyi əsasında müəlliflər tərəfindən hazırlanmışdır.

Cədvəl 1-dən göründüyü kimi, 2015-ci illə müqayisədə 2024-cü ildə kənd təsərrüfatı bitkilərinin istehsalı artmışdır. Bu artım dənli və paxlalı bitkilər üzrə 17,2%, pambıq üzrə 12,2 dəfə, tərəvəz üzrə isə 2,5 dəfə olmuşdur. Lakin müvafiq dövrdə şəkər çuğunduru və kartof üzrə istehsal azalmışdır. Dənli və dənli paxlalı bitkilər üzrə məhsuldarlıq azalaraq 1 hektara görə 36,5 sentnerdən 32,1 sentnerə düşmüşdür. Qarabağ iqtisadi rayonu heyvandarlığın inkişaf etdirilməsi üçün də böyük potensiala malikdir. Belə ki, geniş yaylaq və otlaq sahələri maldarlıq və qoyunçuluğun inkişafı üçün əlverişlidir. Son illərdə heyvandarlıq sahəsində də müsbət tendensiya müşahidə edilmişdir (cədvəl 2).

Cədvəl 2.

**Heyvandarlıq**

| | 2015 | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|---|
| **Heyvanların, quşların və arı ailələrinin sayı** | | | | | | |
| İribuynuzlu mal-qaranın sayı, baş | 287424 | 296217 | 300213 | 301617 | 307590 | 320582 |
| İnək və camışların sayı, baş | 135763 | 136599 | 139405 | 146586 | 150605 | 160440 |
| Qoyun və keçilər, baş | 851033 | 750733 | 747231 | 722507 | 662041 | 672407 |
| Quşlar, baş | 1645624 | 1745452 | 1742482 | 1759044 | 1741216 | 1886532 |
| Arı ailələri, vahid | 10642 | 33123 | 32006 | 32215 | 32043 | 34611 |
| **Heyvandarlıq məhsullarının istehsalı** | | | | | | |
| Ət (kəsilmiş çəkidə), ton | 21776 | 26269 | 26910 | 27157 | 27282 | 28638 |
| Süd, ton | 238585 | 311817 | 311007 | 332638 | 355906 | 372166 |
| Yumurta, min ədəd | 67469 | 99345 | 101221 | 101403 | 103308 | 104431 |
| Yun (fiziki çəkidə), ton | 1994 | 1734 | 1748 | 1706 | 1596 | 1446 |

**Mənbə:** Cədvəl https://www.stat.gov.az/source/regions/ mənbəyi əsasında müəlliflər tərəfindən hazırlanmışdır.

Tədqiqat göstərir ki, 2015-ci illə müqayisədə 2024-cü ildə iribuynuzlu mal-qaranın sayı 11,5%, inək və camışların sayı 18,2%, quşların sayı 14,6%, arı ailələrinin sayı isə 3,2 dəfə artmışdır. Müvafiq dövrdə yalnız qoyun və keçilərin sayında azalma olmuşdur. Qarabağ iqtisadi rayonunda 2015-ci illə müqayisədə 2024-cü ildə iqtisadiyyatın əsas sahələri üzrə məhsulun ümumi buraxılışı 4,6 dəfə, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq üzrə 2,5 dəfə artmışdır (diaqram 1).

Diaqram 1.

**Qarabağ iqtisadi rayonu üzrə məhsul buraxılışı (min manat)**




**Mənbə:** Diaqram https://www.stat.gov.az/source/regions/ mənbəyi əsasında müəlliflər tərəfindən hazırlanmışdır.

Baş verən bu artımlar əhalinin nominal gıəlirlərində də özünü göstərmişdir. Belə ki, 2015-ci illə müqayisədə 2023-cü ildə əhalinin nominal gəlirləri təqribən 74% artmışdır. Müvafiq dövrdə Qarabağ iqtisadi rayonu üzrə hüquqi şəxslərin sayı 43,4%, fiziki şəxslərin sayı isə 2,8 dəfə artmışdır (diaqram 2).

Diaqram 2.

**Qarabağ iqtisadi rayonunda təsərrüfat subyektlərinin sayı**




**Mənbə:** Diaqram https://www.stat.gov.az/source/regions/ mənbəyi əsasında müəlliflər tərəfindən hazırlanmışdır.

Qeyd etmək lazımdır ki, dövlət tərəfindən həyata keçirilən subsidiyalar, güzəştli kreditlər və digər dəstək mexanizmləri aqrar sahədə sahibkarlığın inkişafına səbəb olmuşdur. Azad olunmuş ərazilərdə fəaliyyət göstərən sahibkarlara kreditlər verilməsini dəstəkləmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 9 yanvar tarixli Fərmanı ilə təsdiq edilmiş "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi və kredit faizlərinin subsidiyalaşdırılması Qaydası" və ona əlavə olunmuş "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi barədə Çərçivə Zəmanət Sazişi" qəbul olunmuşdur [3]. Lakin Qarabağ iqtisadi rayonu üzrə 2015-ci illə müqayisədə 2024-cü ildə işçi qüvvəsinin sayında azalma müşahidə edilmişdir. Belə ki, işçi qüvvəsinin sayı 2015-ci ildə 399092 olduğu halda 2024-cü ildə azalaraq 377155 olmuşdur. Azalma tendensiyası məşğul əhalinin, muzdlu işçilərin sayı üçün də xarakterikdir. Belə ki, müvafiq dövrdə məşğul əhalinin sayı 379157-dən 351839-ə kimi, muzdlu işçilərin sayı 70613-dən 65734-ə kimi azalmışdır (cədvəl 3).

Cədvəl 3.

**Qarabağ iqtisadi rayonu üzrə əmək bazarı**

| | 2015 | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|---|
| İşçi qüvvəsinin sayı, nəfər | 399092 | 355965 | 359603 | 364332 | 369198 | 377155 |
| Məşğul əhalinin sayı, nəfər | 379157 | 326788 | 335094 | 341242 | 346325 | 351839 |
| Muzdla işləyənlərin sayı, nəfər | 70613 | 67672 | 65419 | 65614 | 65435 | 65734 |
| Orta aylıq nominal əməkhaqqı, manat | 242 | 409,9 | 437,4 | 536,6 | 602,3 | 645,3 |
| Yeni açılmış iş yerlərinin sayı | 9603 | 4536 | 681 | 905 | 984 | 2266 |
| İşsiz əhalinin sayı, nəfər | 19935 | 29177 | 24509 | 23090 | 22873 | 25316 |
| Əhalinin işsizlik səviyyəsi, faiz | 5,0 | 8,2 | 6,8 | 6,3 | 6,2 | 6,7 |

**Mənbə:** Cədvəl https://www.stat.gov.az/source/regions/ mənbəyi əsasında müəlliflər tərəfindən hazırlanmışdır.

Qarabağ iqtisadi rayonunda 2015-ci illə müqayisədə 2024-cü ildə orta aylıq nominal əməkhaqqı 2,7 dəfə, işsiz əhalinin sayı isə 26,9% artmışdır. Müvafiq dövrdə yeni açılmış iş yerlərinin sayında isə kəskin azalma (4,2 dəfə) vardır. Əhalinin işsizlik səviyyəsi 5%-dən 6,7%-ə kimi yüksəlmişdir. Təhlillərdən də göründüyü kimi, son illərdə Qarabağ iqtisadi rayonunda istər iqtisadiyyatın əsas sahələri üzrə ümumi məhsul buraxılışı, istərsə də kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq üzrə məhsul buraxılışı artmışdır. Lakin müvafiq dövrdə bunun əksinə istər işçi qüvvəsinin, istərsə də məşğul əhalinin sayında azalma müşahidə edilmişdir. Fikrimizcə, bu azalmaya bir sıra - texnologiyanın və mexanikləşmənin artması, kapital tutumlu inkişaf modeli, demoqrafik amillər, qeyri-formal məşğulluq, ixtisaslı işçi çatışmazlığı və digər amillər təsir göstərmişdir. Məlum olduğu kimi, hazırda işğaldan azad edilmiş ərazilərdə "ağıllı kənd" və "ağıllı aqrar təsərrüfat" modellərinin tətbiqi, rəqəmsal və innovativ texnologiyaların istifadəsi, müasir suvarma sistemləri və logistika infrastrukturunun yaradılması bu sahədə işçi qüvvəsinin sayına təsir göstərir. Müasir texnologiyaların tətbiqi sayəsində daha az işçi ilə daha çox məhsul istehsal etmək mümkün olur. Dəqiq əkinçilik prinsipləri təsərrüfat idarəçiliyi proqram təminatı, pilotsuz uçuş aparatları və mobil proqramların tətbiqi ilə kənd təsərrüfatı istehsalında məhsuldarlığın artmasına, daxilolma xərclərinin azalmasına, resursdan istifadənin optimallaşdırılmasına və fermerlər üçün təkrar qərar qəbul etmə imkanlarına malik olur [7].

Demoqrafik amillər də (əhalinin yaş strukturunun dəyişməsi (yaşlanma), doğum səviyyəsinin aşağı olması və s.) məşğul əhalinin sayına mənfi təsir göstərir. Bunlarla yanaşı, qeyri-formal məşğulluq halları da Qarabağ iqtisadi rayonunda məşğul əhalinin sayına təsir göstərə bilən faktorlardandır. Kənd təsərrüfatı sahəsində ixtisaslı kadr çatışmazlığı mövcuddur. Kənd təsərrüfatında dövlət-özəl əməkdaşlığının inkişafı, kiçik və orta sahibkarlığın təşviqi, peşə hazırlığı və insan kapitalının gücləndirilməsi kimi amillərin də məşğulluq imkanlarının genişləndirilməsində mühüm rol oynaya bilər. Təhsil və təlim proqramları rəqəmsallaşma dövründə tələb olunan rəqəmsal bacarıq və səriştələrin inkişafı üçün vacibdir [2, s.38]. Qarabağ iqtisadi rayonunda kənd təsərrüfatı sahəsindəki ixtisaslı kadr çatışmazlığını təhsil və təlim proqramlarının genişləndirilməsi vasitəsi ilə aradan qaldırmaq mümkündür. Beləliklə, kənd təsərrüfatının müasir innovativ üsullarla inkişafı Qarabağ iqtisadi rayonunda sosial-iqtisadi inkişafına, dayanıqlı məskunlaşmanın təmin olunmasına, sosial rifahının yüksəldilməsinə və məşğulluq imkanlarının genişləndirilməsinə müsbət təsir göstərəcəkdir.

**Nəticə**

Aparılan təhlillər göstərdi ki, işğaldan azad edilmiş ərazilərdə, o cümlədən Qarabağ iqtisadi rayounda dayanıqlı məskunlaşma üçün mühüm şərt olan məşğulluğun təmin olunması ilə bağlı müəyyən problemlər mövcuddur. Qarabağ iqtisadi rayonunda əhalinin məşğulluq səviyyəsi qənaətbəxş səviyyədə deyil. Son illərdə Qarabağ iqtisadi rayonu üzrə yeni açılan iş yerlərinin sayı azalmış, işsiz əhalinin sayı isə artmışdır. Bu qeyd olunanlar işğaldan azad edilmiş ərazilərdə məşğulluq imkanlarının genişləndirilməsi ilə bağlı islahatların davam etdirilməsinin zəruriliyini isbatlayır. Fikrimizcə, işğaldan azad edilmiş ərazilərdə əhalinin məşğulluğunun təmin edilməsində kənd təsərrüfatı müqayisəli üstünlük sahəsi ola bilər. Qeyd etmək lazımdır ki, müasir şəraitdə işğaldan azad edilmiş ərazilərdə əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində kənd təsərrüfatının rolunun artırılmasından ötrü əhalinin təhsil və peşə bacarıqlarının yüksəldilməsi zəruridir. Qeyri-formal məşğulluğun səviyyəsinin azaldılması istiqamətində islahatlar davam

etdirlməlidir. Qeyri-formal məşğulluğun xüsusi çəkisinin azaldılması kənd təsərrüfatı sahəsində məşğul olanların sayının düzgün müəyyənləşdirlməsi ilə yanaşı, həm də dövlətin sosial yükünün azaldılmasına, iqtisadi artımın sürətlənməsinə öz töhfəsini verəcəkdir. Bunlardan başqa, aqrar sahədə kooperasiya, sahibkarlığın təşviqi və kənd əhalisinin maliyyə resurslarına çıxışının genişləndirilməsi məşğulluq imkanlarının genişləndirilməsinin əsas amillərdəndir. Bunlarla yanaşı, Qarabağ iqtisadi rayonunda dayanıqlı məşğulluğun təmin olunması üçün kənd təsərrüfatının kompleks inkişafı, innovativ yanaşmaların tətbiqi və dövlət-özəl sektor əməkdaşlığının gücləndirilməsi vacibdir. Bu qeyd olunanların həyata keçirilməsi Qarabağ iqtisadi rayonunun sosial-iqtisadi inkişafına, dayanıqlı məskunlaşmanın və məşğulluğun səviyyəsinin yüksəldilməsinə əhəmiyyətli töhfə verəcəkdir.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı, 2022, https://e-qanun.az/framework/52757
2. Elmir Mahmudov, Qarabağ və Şərqi Zəngəzur İqtisadi Rayonlarında aqrar sektorun rəqəmsallaşdırılması, “Iqtisadi islahatlar” elmi-analitik jurnal № 4(9), https://ereforms.gov.az/files/publications/pdf/az/25be5e4804d411d9543017fe6e71e000.pdf
3. https://e-qanun.az/framework/53147
4. https://president.az/az/articles/view/50474
5. https://www.stat.gov.az/source/regions/
6. Post-konflikt ərazilər: iqtisadi potensial və müqayisəli üstünlüklər /N.Müzəffərli, A.Musayev, A.Muradov, F.Qənbərov, M.Zeynalov, B.Əhmədov/ Bakı, 2023, 297 səh.
7. Сибиряев А.С., Зазимко В.Л., Додов Р.Х. (2020). “Цифровая трансформация и цифровые платформы в сельском хозяистве”, Вестник НГИЭИ №12 (115), стр. 96-108

**Daxil olub: 16.02.2026.**
**Çapa qəbul olunub: 10.03.2026.**